# Cəlil Məmmədquluzadənin 150 illik yubileyinə həsr olunan tədbir keçirilib




**25 dekabr 2019-cu il tarixində Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında böyük demokrat ədib Cəlil Məmmədquluzadənin 150 illiyinə həsr olunan təntənəli yubiey tədbiri keçirilib.**

Məlum olduğu kimi, 2019-cu ilin fevral ayında Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, böyük yazıçı, dramaturq, publisist və ictimai xadim Cəlil Məmmədquluzadənin anadan olmasının 150 illiyi tamam olur.

Azərbaycan xalqının çoxəsrlik mədəni sərvətlər xəzinəsinə misilsiz töhfələr vermiş söz ustası Cəlil Məmmədquluzadənin 150 illiyinin layiqincə qeyd olunmasını təmin etmək məqsədi ilə 17 yanvar 2019-cu il tarixində Azərbaycan Respublikasının Prezidenti tərəfindən sərəncam imzalanmışdır.

Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında keçirilən yubiley tədbiri ədibin 150 illiyinin dövlət səviyyəsində qeyd olunması ilə bağlı Prezident Sərəncamının icrasını təmin etmək məqsədi ilə həyata keçirilən silsilə tədbirlərin davamıdır.

Vaqif Əsədovun quruluşunda hazırlanan yubiley tədbirində dövlət rəsmiləri, ədəbiyyat və incəsənət xadimləri, oxucular iştirak edib. Tədbirdə Cəlil Məmmədquluzadənin Azərbaycan ədəbiyyatının inkişafındakı xidmətlərindən danışılıb, ədibin əsərləri əsasında hazırlanan tamaşalardan və filmlərdən parçaar nümayiş olunub.

Kaspi 2019.- 26 dekabr.- S.11.